# "Canımı qurban, qurban demişəm"

## *Polkovnik-leytenant Mehman Qənbərov zirvəsi*

**Günü yadımda qalmayıb amma oktyabr ayı idi. Əsgərlərə yardım aparmışdıq. Geri dönəndə yardım maşını Bakıya getməli idi deyə, mən Daşburunda düşəsi oldum. Hərbi geyimdə idim. Ağcabədiyə tərəf maşınlar seyrek-seyrək gedirdi. Coxunun da ici dolu. Xeyli gözlədim artıq toranlayırdı. Elə bu vaxt yanımda bir Mersedes markalı maşın dayandı . Arxada yaralı bir zabit oturmuşdu, qolu ayağı sarıqlı. İki hərbici, nisbətən gənc olanlar isə qabaqkı "sdeniya"da əyləşmişdilər. Salam verib hara gedəcəyimi soruşdular. Quzanlıya - dedim... Ağdama tərəf....**

**Zabit:** Biz Ağcabədiyə gedirik! Mehmanın yerlisi olduğunuza görə , gəlin, oturun. sizi də Ağcabədinin döngəsinə qədər aparaq - dedi və gülümsədi.

**- Mehman kimdi?** - dedim..

**- Boy, siz Mehmanı tanımırsınız?**

**- Vallah nə bilim, müharibə başlayandan biz tərəfdə internet yoxdu..**

İlk dəfə Mehman Qəmbərov haqda orda eşitdim. Zabit Mehmandan o qədər qürurla danışırdı ki, Agcabədiyə dönmədi, "çöl yolu" deyilən yerə qədər getdilər və məni Quzanlıya ən işlək yol olan Hindarx yoluna qədər apardılar...Sağ olsun, var olsun şərəfli Azərbaycan əsgər və zabitləri!

### *"Canımı qurban, qurban demişəm"- deyən oğullar*

30 il idi, qarabağlıların əlləri yurda doğru uzalı qalmışdı, 30 il idi "evim, elim , obam" deyib sızıldayır, ötən-keçən xatirələrin üzərinə çöküb ağlayır, amma qübarını, nisgilini ata bilmirdilər. Və elə ağlaya-ağlaya, sızlaya-sızlaya da anlayırdılar ki, bu həsrəti , qübarı, nisgili onların qəlbindən, beynindən. gözlərindən, ruhundan ancaq igidlərimiz silib ata bilər!Torpağı qanları ilə Vətən edən oğullar! Məhz onlar Azərbaycanın 30 illik yarasını sağaltmağı bacararlar və bacardılar! Elə oğullardan biri də Azərbaycan Ordusunun polkovnik-leytenantı Mehman Qənbərovdu! I Qarabağ müharibəsi qazisi Rafiq Kərimovla söhbət edirik. O bildirir ki, igid zabitimizlə qonşu olub, Mehmanın valdeynlərini ailəsini yaxından tanıyır. Rafiq bildirir ki, belə oğullar tək Məryəm xanımın , Nəriman qardaşın evindən yox, bütün xalqın evindən gedən oğullardandı. Bu ailə zəhmətkeşliyinə, sadə və mehribanlığına görə kənddə hörmətə layiq olub. Mehman şəhid olan günlərdə "Qarabağ Qaziləri" İctimai birliyinin üzvləri ilə ailənin qonağı olduq. Yas mərasimində Mehmanı tanıyanların sözü-söhbəti onun igidlikləri, qorxmazlığı, əsgərinə balası kimi qaygı göstərməsindən danışdılar. Söhbətləri dinləyə-dinləyə düşünürdüm ki, nə yaxşı Mehman kimi soydaşım var və nə yaxşı ki, həmkəndlim, qonşum olub".





***Haşiyə:*** *Mehman Qənbərov 1981-ci il mayın 27-də Ağdam rayonunun Maqsudlu kəndində anadan olub. Ailəli idi. 2 oğlu yadigar qaldı.*

***Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Mehman Qənbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Mehman Qənbərov sentyabrın 30-da şəhid olub. Bərdə rayonunda dəfn olunub.***

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə, Ali Baş Komandan İlham Əliyevin 9 dekabr 2020-ci ildə onu "Qarabağ" ordeni ilə təltif edib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Mehman Qənbərov ölümündən sonra -15 dekabrda "Vətən uğrunda", Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə, 25 dekabrda isə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

### *"Mənim komandirim..."*

Elə şəhid zabitimizin iş yoldaşının mediaya açıqlaması da Rafiqin fikirlərini təsdiq edir. Həmin zabit deyib ki, M.Qəmbərovun əsgərlərinə qarşı general Polad Həşimov kimi nümunə olub. (Zabit hazırda xidmətdə olduğu üçün adını açıqlanmamasını xahiş edib) :"Mehman hərbi hissənin Maddi Təminat üzrə rəisi idi. O, yaralı tabor komandirinin yerinə könüllü olaraq döyüşə girib. Füzuli uğrunda gedən döyüşlərdə şəhid oldu. Biz onunla həmyerliyik və bizi 2016-cı ildə Lələ təpədə tanış etmişdilər. Mehman harda xidmət edibsə, həmişə hörmət qazanıb, onun başına and içiblər. 2016-cı il Şanlı Aprel döyüşlərində də xüsusi qəhrəmanlıq göstərib. Mehmanın şəhid olduğunu eşidəndə hamı ağlayırdı. Mən bilirdim ki, onun iki körpəsi var, amma evinə getməyib, Füzulidə tabor komandiri olanda əsgərlərinə lazım olan köməkliyi edib. O, şəhid olanda bir əsgəri yanımda ağlayıb deyirdi ki, "Mehman mənim komandirim olub. Xəstələnmişdim, evimə deyə bilmirdim, amma müalicəmi Mehman etdirib". (Moderator.az)

Mehman Qəmbərov nəinki ailəsi. kəndi. dogma şəhəri, dogma Qarabağı erməni əsirliyində, düşmən tapdağında idi. Mehman və yüzlərlə igidimiz tapdaq altda qalmış o müqəddəs yurdları öz qanları bahasına azad etdilər!

Elə müqəddəs kitablarda şəhidlərimizin müqəddəsliyi də açıqca göstərilib:

**"Cənnətə daxil olan heç kəs, hətta bütün dünyanın nemətləri ona verilsə belə, cənnətdən çıxıb bir daha bu dünyaya qayıtmaq istəməz. Yalnız şəhid Allahdan o qədər mükafat görər ki, (bunların əvəzini vermək üçün) 10 dəfə dünyaya qayıdıb öldürülməyi arzu edər".**

**"Öz ailəsini zülmdən qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Öz malını zalımdan qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Öz qonşusunu zülmdən qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Allah naminə öldürülən şəxs şəhiddir.**

**Özünü təcavüzdən qoruyaraq öldürülən şəxs şəhiddir.**

**Zülmü aradan qaldırmaq yolunda öldürülən şəxs şəhiddir".**

**"Kim Allah yolunda savaşıb yaralansa, qiyamətdə bədənindən müşk ətri gələr. Kim şəhid olmağı sidq ürəklə Allahdan istəsə, hətta öz əcəli ilə yataqda ölsə belə, Allah ona şəhidin savabını verər".**

**Dəyərli olduğunuz cənnətiniz mübarək, şəhidlərim!**

**Əntiqə Rəşid**

ədalət.- 2021.- 1 iyun.- S.3.